DƏNİZKƏNARI
BULVAR İDARƏSİ

# AZƏRBAYCAN BAYRAĞI

KÖNÜL İMAMVERDİYEVA

– Təkmilləşdirilmiş yeni nəşr –

Bakı-2022



*«Azərbaycanın bayrağı sadəcə bayraq deyil. O, bizim dövlətçiliyimizin, müstəqilliyimizin rəmzidir... Ona görə də gərək hər bir Azərbaycan vətəndaşı, xüsusən gənc nəsil bunu dərk etsin, qiymətləndirsin. Onda bayrağa olan məhəbbət eyni zamanda Vətənə, xalqa, dövlətə olan məhəbbətə bərabər olsun».*

***Heydər Əliyev***

*Azərbaycan xalqının Ümummilli lideri*



*«Bu gün Azərbaycan Bayrağı Qarabağda dalğalanır. Ağdamda, Füzulidə, Cəbrayılda, Qubadlıda, Zəngilanda, Kəlbəcərdə, Laçında, Şuşada, Hadrutda, Talışda, Suqovuşanda və neçə-neçə kənddə, yüzlərlə kənddə Azərbaycan Bayrağı dalğalanır. Bu gün Azərbaycan Bayrağı Zəngəzur dağlarında dalğalanır!».*

***İlham Əliyev***

*Azərbaycan Respublikasının Prezidenti*

## ÖN SÖZ
## GƏNC NƏSLƏ QİYMƏTLİ TÖHFƏ

İstedadlı tədqiqatçı Könül İmamverdiyeva "Azərbaycan bayrağı" kitabının yenidən işlənərək təkmilləşdirilmiş ikinci nəşrini öz oxucularına təqdim edir. Bu yetişməkdə olan nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasına mühüm töhfədir.

Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunması, onlara dövlətçilik simvollarına dərin ehtiram hissinin aşılanması xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan müstəqillik tariximizin ən mühüm nailiyyətlərindən biri də yeniyetmələrə Azərbaycan Respublikasının dövlətçilik rəmzlərinə dərin ehtiram hissinin aşılanması yolunda əldə etdiyimiz uğurlardır. Buna görə də gənclərimizdə Azərbaycan bayrağına sevgi ruhunun aşılanması olduqca böyük əhəmiyyətə malikdir.

Bayraq sevgisi Vətən sevgisidir. Bayraq hər bir insanın, hər bir millətin azadlıq simvoludur, siyasi varlıq və müstəqillik rəmzidir. Bayrağına, dövlətçiliyinə sahib çıxan xalqlar heç zaman başqalarının zülmü altına düşmürlər. Ulu öndər Heydər Əliyev gənclərin vətənpərvərlik ruhunda tərbiyəsinə, onlarda dövlətçilik simvollarına hörmət hissinin aşılanmasına yüksək qiymət verirdi. Ulu öndərin dövlətçilik yolunu və siyasi kursunu böyük qələbələrlə davam etdirən Prezident İlham Əliyev Dənizkənarı Milli Parkdakı Dövlət Bayrağı Meydanında üçrəngli bayrağımızı dünyanın ən uca bayrağı yüksəkliyinə qaldırmaqla Vətənimizdə milli bayraq sevgisini də uca zirvəyə qaldırdı. Qısa zaman kəsiyində Dövlət Bayrağı Meydanı, bu müqəddəs meydandakı Dövlət Bayrağı Muzeyi xalqımızın, ölkəmizə səfər edən minlərlə müxtəlif peşə adamlarının, siyasi xadimlərin, turistlərin ən sevimli səyahət və istirahət guşəsinə çevrildi.

Dənizkənarı Bulvar İdarəsinin ciddi səyləri nəticəsində Dövlət Bayrağı Muzeyi qısa vaxt ərzində tarixin qədim dövrlərindən mövcud olmuş dövlətlərimizin, xanlıqlarımızın bayraqlarını toplamış, tarixçi alimlərimizlə, o cümlədən Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu ilə sıx əməkdaşlıq sayəsində çox mühüm yaradıcılıq işləri həyata keçirmişdir. Bu, dövlətimiz və dövlətçiliyimiz qarşısında çox böyük xidmətdir.

Dövlət Bayrağı Muzeyi ötən müddət ərzində bu müqəddəs məkana ekskursiyaya gələn yeniyetmələrdə və gənclərdə dövlətçilik simvollarımı-

zın təbliği baxımından çox mühüm uğurlar qazanmışdır. Bu mühüm əhəmiyyətli işdə Dövlət Bayrağı Muzeyinin direktoru Könül İmamverdiyevanın yeniyetmələrdə və gənclərdə dövlətçilik simvollarımıza hörmət və sevgi hissi, vətənpərvərlik ruhu aşılamaq məqsədilə ərsəyə gətirdiyi "Azərbaycan bayrağı" kitabı mühüm rol oynamış, yeniyetmələrin və gənclərin stolüstü kitabına çevrilmişdir. Müəllif çox gərəkli olan bu məlumat kitabında dövlətçilik simvollarının meydana gəlməsinə, o cümlədən Azərbaycan bayrağının təkamülü tarixinə, ayrı-ayrı dövrlərdə Azərbaycanda mövcud olmuş dövlətlərin bayraqlarının müxtəlif nümunələrinə kifayət qədər geniş yer ayırmış, Dövlət Bayrağı Meydanının yaradılması və müqəddəs üçrəngli bayrağımızın ucaldılması mərasiminin işıqlandırılması ilə bağlı materiallardan istifadə etmişdir.

"Azərbaycan bayrağı" kitabının ən uğurlu cəhəti Ulu öndərin dövlətçilik rəmzlərimizə, həmçinin Prezident İlham Əliyevin Azərbaycan bayrağına verdiyi önəmə, paytaxtımızda üçrəngli bayrağımızı dünyanın ən uca bayrağı zirvəsinə qaldırmaq üçün göstərdiyi tarixi xidmətə əsərdə geniş yer verilməsidir.

Sevindirici haldır ki, "Azərbaycan bayrağı" kitabının ikinci nəşrində dövlət başçımız, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən Müharibəsində son 200 il ərzində erməni təcavüzkarlar üzərində əldə olunmuş böyük tarixi qələbə geniş şəkildə işıqlandırılmışdır.

Bu baxımdan "Azərbaycan bayrağı" kitabının əvvəlki nəşri kimi yeni nəşri də bir zamanlar Bakı Dövlət Universitetində çalışqan, istedadlı, daim elmi axtarışlara meyil göstərən keçmiş tələbəm, tarix üzrə fəlsəfə doktoru Könül İmamverdiyevanın böyük uğurudur. Bu, məni çox sevindirir. Kitabın ikinci nəşrinin də oxucular tərəfindən maraqla qarşılanacağına şübhə etmirəm və istedadlı gənc tədqiqatçımıza – sevimli tələbəmə yeni-yeni yaradıcılıq uğurları arzulayıram.

**Yaqub Mahmudov**

*AMEA-nın həqiqi üzvü, Dövlət Mükafatı laureatı,*

*Əməkdar elm xadimi*



## AZƏRBAYCAN BAYRAĞI

Dövlət rəmzləri istənilən dövlətin tanınma nişanı, onun suverenliyinin, özünəməxsusluğunun simvoludur. Bu rəmzlərdə hər bir dövlətin, xalqın çoxəsrlik tarixi, milli dəyərləri və ənənələri öz əksini tapır. Qədim dövlətçilik tarixinə və ənənələrinə malik olan Azərbaycanın müstəqilliyini və şərəfli keçmişini özündə birləşdirən dövlət rəmzləri sırasında Azərbaycan Respublikasının bayrağı müstəsna yer tutur. Azərbaycan Respublikası Konstitusiyasının 23-cü maddəsində bildirilir:

*« I. Azərbaycan Respublikasının dövlət rəmzləri Azərbaycan Respublikasının Dövlət bayrağı, Azərbaycan Respublikasının Dövlət gerbi və Azərbaycan Respublikasının Dövlət himnidir.*

*II. Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir və qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.*

*III. Azərbaycan Respublikası Dövlət bayrağının və Azərbaycan Respublikası Dövlət gerbinin təsviri, Azərbaycan Respublikası Dövlət himninin musiqisi və mətni Konstitusiya qanunu ilə müəyyən edilir».*

Hər bir xalq öz dövlət simvollarına sadiqdir, çünki bu rəmzlər xalqın mövcudluğunun təcəssümü kimi özündə onun ən ali, ən müqəddəs dəyərlərini yaşadır.

Azərbaycan xalqının qürur mənbəyi olan, müstəqilliyimizi təcəssüm etdirən dövlət atributlarına hörmət və ehtiram, onlara məhəbbət məhz gənc yaşlarından, orta məktəbdən formalaşdırılmalıdır. Dövlət rəmzlərimizi təbliğ etmək, cəmiyyətin hər bir üzvünə milli dəyərlərimizə hörmət və sevgi aşılamaq Azərbaycanın dövlətçilik ənənələrinin qorunub saxlanılması və inkişaf etdirilməsi üçün vacib amillərdəndir. Dövlət rəmzləri eyni zamanda vətəndaş cəmiyyətinin formalaşmasında, gənc nəslin vətənpərvərlik və milli-mənəvi ruhda tərbiyəsində müstəsna rol oynayır. 1998-ci il martın 13-də Azərbaycan Respublikasının Prezidenti, Ümummilli lider Heydər Əliyevin imzaladığı «Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında» Sərəncamda qeyd edilir: *«Azərbaycan Respublikasının bayrağı, gerbi və himni Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən müqəddəs rəmzlərdir. Vətəndaşlarımıza, xüsusən gənclərimizə dövlət atributlarına dərin ehtiram hisslərinin aşılanması cəmiyyətdə vətənpərvərlik ruhunun möhkəmləndirilməsi işinə bilavasitə xidmət edir. Dövlət atributlarının mahiyyətinin və əhəmiyyətinin əhali arasında geniş təbliğ olunması, gənc nəslin Azərbaycanın bayrağına, gerbinə və himninə hörmət ruhunda tərbiyə edilməsi vətəndaş cəmiyyətinin yaradılmasının mühüm amillərindən biridir».*

Dövlət rəmzləri milli dövlətçiliyin, istiqlaliyyətin mövcudluğunu, xalqın keçmişini və gələcəyə yönəlmiş ən ülvi arzularını ifadə edir. Odur ki, hər bir vətəndaş dövlət rəmzlərinin yaranma tarixini, daşıdığı mənanı yaxşı bilməli, onları qorumalı, təbliğ etməli və ideyalarını yaşatmalıdır.

Hər bir dövlətin əsas atributu sayılan, müqəddəs anlam daşıyan bayraq, xalqın mənəvisiyasi və mədəni birliyinin simvoludur. Bayraq eyni zamanda azadlıq və istiqlal rəmzi olaraq xalqın məxsus olduğu dövlətin müstəqilliyini ifadə edir.

*«Bayraq»* sözü ümumtürk mənşəlidir və qədim tarixə malikdir. Böyük mütəfəkkir Mahmud Kaşğarinin məşhur «Divanü lüğat-it-türk» (XI əsr) əsərində müasir dilimizdəki «*bayrak/batrak*» sözü qeydə alınmışdır. Eyni zamanda, tədqiqatçıların fikrincə, həmin söz «*batırak/batrak/bayrak*» semantik-struktur təkamül modeli əsasında «*batır*» - (batırmaq, sancmaq) feilindən törəmişdir. Müasir türk dilində «*bayraq*» sözü ilə yanaşı *«sancaq»* sözü də işlədilir.

Qeyd etmək lazımdır ki, qədim türk tayfalarında bayraq müxtəlif adlarla *(sancaq, tuğ, ələm)* tanınır və müqəddəs anlam daşıyırdı. Bu da onların dini inancları ilə bağlı idi. Belə ki, Göytürk dövlətində qurd başlı tuğlardan istifadə olunurdu.

Bundan əlavə, «*tuğ*», *«sancaq»*, *«ələm»* anlayışlarına «Kitabi-Dədə Qorqud» dastanında da rast gəlinir. Bayraq *(tuğ, sancaq, ələm)* Oğuz tayfalarında müqəddəs rəmz sayılaraq döyüşçülər tərəfindən öndə daşınırdı.

Bəşər tarixində bayraqların ilkin formaları uzun dirəklər üzərində müxtəlif bəzək ünsürlərindən və sakral elementlərdən tərtib olunan xüsusi tanınma-fərqləndirmə nişanlarından ibarət olmuşdur. Onlara müasir elmi dövriyyədə ümumiləşdirilmiş şəkildə «veksilloidlər» deyilir. Bu nişanlar hələ qədim dövrlərdə qəbilə, tayfa və ya tayfa birlikləri başçılarının hakimiyyət rəmzi olmaqla, hərbi əhəmiyyət də daşımışdır. Döyüş zamanı bu tipli bayraqlar müqəddəs hesab edilir, onun düşmən əlinə keçməsi məğlubiyyətin başlıca əlaməti sayılırdı.

Qeyd etmək lazımdır ki, qədim veksilloidlərin təsvirləri Misirdə aşkar edilmişdir. Belə ki, Misirin Qahirə muzeyində saxlanılan, təxminən e.ə. 3200-cü ilə aid daş kitabədə Misir fironu Narmerin qarşısında dörd döyüşçünün Misir əyalətlərinin hərbi simvollarını daşıması təsvir edilmişdir. Beləliklə, Misirdə ilk sülalələr dövründən hökmdarı bayraqla (veksilloidlə) müşayiət etmək ənənəsi olmuşdur. İlk ipək bayraq qədim Çin dövləti ilə əlaqələndirilir. Çjou sülaləsinin əsasını qoyan imperator Çjou e.ə. XII əsrdə onun saraya gəlişini xəbər verən ağ bayrağın öndə aparılması barədə əmr vermişdi. Beləcə, tarixdə müasir bayraqların ilk prototipləri qaldırılmışdı.

Yüngül, davamlı ipək parçalar bayraqların hazırlanması üçün ideal sayılırdı. İpək bayraq uzaq məsafədən daha aydın görünürdü. Bayraqların parçadan hazırlanması ənənəsi Çindən sonra Monqolustan, Hindistan, İran, Roma, daha sonra isə bütün dünyaya yayılmışdır.



*Misir fironu Narmerə aid daş kitabə (təxminən e.ə. 3200-cü il)*




*Qədim Roma ordusunun bayrağı (veksillum)*



*Qədim Roma ordusunda bayraqdar*



*Tunc dövrünə aid hakimiyyət rəmzi (e.ə. XV-XIV əsrlər) Milli Azərbaycan Tarixi Muzeyi*

Roma imperiyasında hərbi süvari qoşunlarına verilən bayraqlar «*veksillum*» adlanırdı. Veksillum Qərbi Avropada müasir bayraqlara bənzəyən ilk bayraq sayılırdı. Bu bayraqların parça hissəsi tünd qırmızı rəngdə, dördkünc formada idi və dirəyin yuxarı hissəsindən üzü aşağı vertikal şəkildə bərkidilirdi. Qeyd etmək lazımdır ki, «*veksillum*» sözündən XX əsrin ortalarında «*veksillologiya*» (bayraqları öyrənən elm) termini yaranmışdır.

Orta əsrlərdə Avropada ordunun bölmə və hissələrinin fərqləndirici bayraqlarına «ştandart» deyilirdi. Bundan əlavə, ştandart həm də hakimiyyətin, dövlət rəhbərinin atributu sayılırdı. Hazırda bu ənənə qalmaqdadır və bir sıra dövlətlərin başçılarının qanunla müəyyən edilmiş qaydada ştandartları vardır.

Azərbaycan dövlətçiliyinin əsas rəmzlərindən biri sayılan bayrağımızın tarixi dərin köklərə malikdir. Azərbaycan ərazisində ilk bayraqların yaranma tarixi ilə tanış olduqda görürük ki, onların meydana gəlməsi bizim eradan əvvəlki dövrləri əhatə edir.

Azərbaycanda arxeoloji tapıntılara əsasən, ştandart (sancaq) formalı bayraqların hələ Tunc dövründə (e.ə. IV-II minilliklər) istifadə edilməsi məlumdur. Arxeoloji qazıntılar zamanı Şəmkir və Şəki rayonlarında tapılmış buynuzlu maral, üzərində səkkizguşəli ulduz, şüalanan günəş və müxtəlif həndəsi naxışlar olan dairəvi lövhə və başqa formalı tunc ştandart başlıqları bu gün muzey kolleksiyalarını bəzəyir.

Qeyd edək ki, Azərbaycanda aşkar edilmiş əksəriyyəti taxta sapa taxılmış, buynuzlu heyvan fiqurlu ştandartlara Manna qalalarının təsvir edildiyi, e.ə. VIII-VII əsrlərə aid Assuriya divar rəsmlərində rast gəlmək olar.



*Manna qalaları üzərində buynuzlu heyvan təsvirli rəmzlər (e.ə. VIII-VII əsrlər)*




*Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bayraqları*
*Dövlət Bayrağı Muzeyi*





İlkin bayraqlar uzun bir təkamül yolu keçmişdir. Tədricən bayraq ucluqları kiçilmiş, parça hissəsi isə böyüdülmüşdür. Beləliklə, bayraqlar müasir görkəm almağa başlamışdır. Müasir dövrümüzdə bayraqlar dövlət, milli, hərbi (hərbi hissələrin, hərbi dəniz gəmilərinin), müxtəlif təşkilatların bayraqlarına və ştandartlara (vəzifəli şəxslərin bayraqları) bölünür.

Hal-hazırda ştandart dövlət başçılarının hakimiyyət simvolu sayılır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ştandartı (bayrağı) 15 sentyabr 2008-ci ildə «Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı) haqqında» imzalanan Fərman əsasında qəbul olunmuşdur. Fərmanda qeyd olunur ki, *«Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı) Azərbaycan Respublikası Prezidentinin rəsmi simvoludur; Azərbaycan Respublikası Prezidentinin ştandartının (bayrağının) etalonu (orijinalı) Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasının Prezident sarayında yerləşən xidməti otağında saxlanılır; Azərbaycan Respublikası Prezidentinin ştandartının (bayrağının) dublikatı Azərbaycan Respublikasının Prezident sarayının və Azərbaycan Respublikası Prezidentinin iqamətgahlarının üzərində, Azərbaycan Respublikasının Prezident sarayında və Azərbaycan Respublikası Prezidentinin iqamətgahlarında Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə rəsmi tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan salonlarda və otaqlarda, Azərbaycan Respublikası Prezidentinin digər iqamətgahlarda olduğu müddətdə həmin iqamətgahların üzərində, Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə keçirilən rəsmi tədbir və digər mərasimlər zamanı*



*Azərbaycan Respublikası Prezidentinin*
*ştandartının dublikatı*
*(15 sentyabr 2008-ci il)*
*Dövlət Bayrağı Muzeyi*



*Azərbaycanın orta əsrlər dövlətlərinin bayraqları (reproduksiya) Dövlət Bayrağı Muzeyi*

*həmin tədbirin keçirildiyi binanın üzərində və ya həmin tədbirin keçirildiyi salonda (otaqda), Azərbaycan Respublikası Prezidentinin nəqliyyat vasitələri üzərində qaldırıla (asıla) və ya yerləşdirilə bilər».* Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı) Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərinə uyğundur və hər iki üzündə qırmızı zolağın ortasında Azərbaycan Respublikasının Dövlət gerbi təsvir edilmişdir.

Dövlət bayrağından fərqli olaraq, Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı) kvadrat formadadır və müxtəlif ölçülərdə ola bilər.

Tarixin müxtəlif dövrlərində Azərbaycan ərazisində güclü dövlətlər mövcud olmuşdur. Bunların sırasında Azərbaycanın Şirvanşahlar, Atabəylər, Qaraqoyunlu, Ağqoyunlu, Səfəvilər və s. dövlətləri tariximizdə misilsiz izlər qoymuşdur. Bu dövlətlərin hər birinin müstəqillik rəmzi olan bayraqları, möhürləri, pul vahidləri var idi.

XV əsrdə Azərbaycan ərazisində mövcud olmuş Qaraqoyunlu dövlətinin ordusu döyüşlərdə bayraqlarını dövlətin başlıca atributlarından biri kimi qaldırırdılar. Digər dövlətlərdə olduğu kimi, Qaraqoyunlularda da bayraq güc və qələbə rəmzi hesab olunurdu.



*Qaraqoyunlu dövlətinin bayrağı (XV əsr) (reproduksiya)*
*Dövlət Bayrağı Muzeyi*



*Ağqoyunlu dövlətinin bayrağı (XV əsr) (reproduksiya)*
*Dövlət Bayrağı Muzeyi*

Həsən bəy Rumlu yazırdı: *«Türkmanlar döyüşə gedərkən rəngli bayraqlardan istifadə edirdilər. Türklər təxminən 5 min süvari ilə ayri gedən fələyin çarxına oxşayan arabalar ilə dağlıq bölgədən çıxdılar. Rəngarəng bayraqların parlaqlığından ətraf ərazi gül və lalə bağçasına dönmüşdü»*. İ.H.Uzunçarşılının qənaətinə görə, Milli Saraylar Başkanlığı - Topqapı Sarayının (İstanbul) xəzinə kitabxanasında saxlanılan və 1428-ci ildə ispan J.Villadestes tərəfindən perqament üzərində çəkilmiş xəritədə Qaraqoyunluların bayrağı sarı fonun ortasında qırmızı dördkünc formada təsvir edilmişdir.

Bundan əlavə, tarixi mənbələrdə Ağqoyunlu dövlətinin bayandur tayfasının damğası ilə ağ rəngli bayraqlarının olduğu qeyd olunur. Milli Saraylar Başkanlığı - Topqapı Sarayında Ağqoyunlu hökmdarı Uzun Həsənə məxsus bayraq saxlanılır. Ağ parçadan hazırlanmış bayraq uzunsov üçbucaqlı formadadır. Üzərində təsvir olunmuş Uzun Həsənin tuğrasında «Sultan Həsən Bahadur» sözləri yazılmış, mərkəzində Qurani-Kərimin "Əs-Saff" surəsinin 13-cü ayəsi, kənarlarında isə «Bəqərə» surəsinin 255-ci, «Ali İmran» surəsinin 181-ci, «Fəth» surəsinin ilk iki ayəsi verilmişdir.



*Ağqoyunlu hökmdarı Uzun Həsənin bayrağı (XV əsr)*
*Milli Saraylar Başkanlığı - Topqapı Sarayı, Silahlar kolleksiyası, inventar №1/3*

XVI əsrin əvvəllərində Azərbaycanda dövlətçilik tarixinin təkamülündə müstəsna rola malik olan vahid, mərkəzləşdirilmiş Səfəvilər dövləti meydana gəlmişdir. Səfəvilər sülaləsinin hakimiyyəti dövründə də müxtəlif rəsmi rəmzlər qəbul olunmuşdur. Onların içərisində bayraqlar mahiyyətinə görə seçilirdi.

Azərbaycanın Orta əsrlər dövrünün, xüsusən də Səfəvilərin dövlətçilik tarixinin öyrənilməsi çox aktualdır. Bu sahədə Təbriz miniatür məktəbi zəngin material təqdim etməklə böyük əhəmiyyət kəsb edir. Bu miniatürlərdə Səfəvilər dövlətinin döyüşlər zamanı istifadə etdiyi bayraqlar da təsvir edilmişdir. Məhz bu miniatürlər əsasında həmin bayraqlar dərindən araşdırılır və bərpa edilir.

Təbriz miniatür məktəbinin inkişaf zirvəsi XVI əsrin ortalarına təsadüf edir və görkəmli rəssam Sultan Məhəmmədin yaradıcılığı ilə sıx bağlıdır. Təbrizdə Şah İsmayıl və Şah Təhmasibin saray kitabxanasında böyük ustad Sultan Məhəmmədin rəhbərliyi altında istedadlı yerli rəssamlarla yanaşı, Şərqin görkəmli sənətkarları, xəttat və rəssamları fəaliyyət göstərirdilər.

Onu da qeyd etmək lazımdır ki, Təbriz miniatürlərində təsvir edilən bayraqlarda a*y-ulduz* motivinə də rast gəlinir. Bundan əlavə, tarixi mənbələrdə ay-ulduz motivinin Səfəvilər dövlətinə aid bayraq və bayraq başlıqlarında da istifadə edildiyi qeyd olunur. «Cahanarayi Şah İsmayıl» əsərinə (XVI əsr) istinad edən tədqiqatçı M.Abbaslı bildirir ki, Şah İsmayıl Bağdada özünün ay-ulduzlu bayraqları altında yaxınlaşmışdı. Ay-ulduz rəmzinin Şah İsmayıl dövrünün bayraqlarında istifadə olunması qədim türk xalqlarının tarixi yaddaşının qorunub saxlanılması kimi dəyərləndirilməlidir. Belə ki, qədim türk



*Təbriz miniatüründə bayraqların təsviri (XVII əsr)*



*Təbriz miniatüründə*
*bayraqların təsviri (XVII əsr)*

dövlətlərinin memarlıq abidələrində, sikkələrində ay-ulduz rəmzinə tez-tez rast gəlinir. Mərkəzi Asiyada aparılan qazıntılar zamanı Göytürk dövlətinə aid sikkələrin üzərində bu rəmz əks olunub.

Səfəvilər dövlətinin bayraqlarında aslan və günəş təsvirləri də öz əksini tapmışdır. O dövrün səyyah-




*Səfəvilər dövlətinin hökmdarı Şah İsmayıl Xətainin bayrağı (XVI əsr)*
*(reproduksiya)*
*Dövlət Bayrağı Muzeyi*

larının əsərlərində Səfəvilər dövlətinin sikkələrinin üzərində aslan və günəş təsvirinin olduğu haqqında məlumat verilir. Aslan və günəş motivindən geniş istifadə olunması Səfəvilərin qədim türk dövlətçilik ənənələrinə bağlılığını göstərir. Belə ki, günəş və aslan təsviri Səlcuqların hakimiyyəti dövründə də istifadə olunurdu. 1240–1244-cü illərdə Keyxosrov ibn Keyqubadın kəsdirdiyi gümüş dirhəmlərin üzərində aslan və günəş təsvirlərinə rast gəlinir.

«Tarix-i aləmarayi Şah İsmayıl» əsərində də Şah İsmayılın bayrağı haqqında məlumat verilir. Mənbədə bildirilir ki, Şah İsmayılın bayrağı çox iri olub, ağ qumaşdan hazırlanmış, üzərində Qurani-Kərimin 61-ci («Əs-Saff») surəsinin 13-cü ayəsindəki «Nəsrun min Əllahi və fəthun qəribun» *(Allahdan kömək və yaxın qələbə)* ifadəsi həkk olunmuşdur.




*Səfəvi hökmdarı Şah Sultan Hüseyn (1694-1722) tərəfindən 1714-cü ildə Fransa kralı XIV Lüdovikin sarayına göndərilən Səfəvi elçisi, İrəvan şəhər kələntəri Məhəmməd Rza bəy əlində aslan və doğan günəş təsvirli ağ bayraq ilə*



*Şəki xan Sarayının divar rəsmlərində təsvir olunan bayraqlar (XVIII əsr)*

Nadir memarlıq abidəsi olan Şəki xan sarayının divar təsvirlərindəki bayraqlar da XVIII əsr dövlətçilik tariximizin öyrənilməsində mühüm əhəmiyyətə malikdir. Binanın tikintisinə 1789–1790-cı illərdə başlanılmış, 1797-ci ildə isə tamamlanmışdır. Müasir dövrdə «Şəki xan sarayı» adı ilə tanınan bu bina divanxana olaraq Məhəmmədhəsən xan tərəfindən tikdirilmişdi. Qala divarları ilə əhatə olunan bu tikili ikimərtəbəli olmaqla altı otaqdan, dörd dəhlizdən, ikigüzgülü eyvandan ibarətdir.

Sarayın divar təsvirlərində müxtəlif bayraqlar əks olunmuşdur. Onlar forma və rəngləri ilə seçilirlər. Təsvirlərdən aydın olur ki, bayraqların forma müxtəlifliyi onların sahiblərinin hakimiyyət iyerarxiyasının müxtəlif pillələrində dayanması ilə bağlı olmuşdur. Belə ki, burada bayraqlar xan və onun əyanlarının, həmçinin ayrı-ayrı dəstələrdə olan adamların əlində təsvir edilmişdir. Şəki xan sarayı hal-hazırda muzey kimi fəaliyyət göstərir.

Dövlətçilik ənənələri Azərbaycan xanlıqları dövründə də geniş yayılmışdı. XVIII əsr Azərbaycan xanlıqlarının hər birinin dövlət rəmzləri - bayraqları, dövlətçilik nişanları olan pul nümunələri, möhürləri, şeşpərləri və s. mövcud olmuşdur.

Azərbaycan xanlıqlarının bayraqları Şərq parçalarından tikilmiş, müxtəlif ornament və yazılarla bəzədilmişdir. Xanlıqların bayraqları üzərində Qurandan ayələr öz əksini tapmışdır. Bu bayraqların üzərində *«Allahdan kömək və yaxın qələbə»*, *«Mərhəmətli Allahın adı ilə»*, *«Məhəmməd Allahın elçisidir»*, *«Məhəmməd, möminləri müjdələ»* kimi ifadələr tez-tez təkrarlanır.



*Şəki xan sarayının divar rəsmlərindəki bayraqlar (XVIII əsr) (reproduksiya) Dövlət Bayrağı Muzeyi*



*Azərbaycan xanlıqlarının bayraqları (XVIII əsr) (reproduksiya) Dövlət Bayrağı Muzeyi*







*Bakı xanlığının bayrağı*
*(XVIII əsr)*
*Milli Azərbaycan Tarixi Muzeyi*



*Gəncə xanlığının bayrağı*
*(XVIII əsr)*
*Milli Azərbaycan Tarixi Muzeyi*

Azərbaycan xanlıqlarının bayraqları ilə yanaşı xanların öz hakimiyyət rəmzləri sayılan ştandartları da mövcud olmuşdur. Bunlara misal olaraq, bu günə qədər gəlib çıxan İrəvan xanı Hüseynqulu xanın, Şəki xanı Səlim xanın ştandartını, eləcə də Gəncə xanı Cavad xanın buncuğunu göstərmək olar.

Onu da qeyd etmək lazımdır ki, Çar Rusiyasının istilasından sonra xanlıqların bir çox dövlət atributları, o cümlədən bayraqları qənimət kimi aparılaraq, sonradan Gürcüstan və Rusiya muzeylərinə daşınmışdır. 1924-cü ildə Tiflisdə yerləşən Qafqaz Hərb Tarixi Muzeyindən Gəncə, Bakı, Şəki və İrəvan xanlıqlarının bayraqları Azərbaycan Dövlət Muzeyinə (indiki Milli Azərbaycan Tarixi Muzeyi) təhvil verilmişdir.

Dövlətçilik ənənələrinin bərpası 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaranması ilə əlaqədardır. Milli dövlətçiliyin bərpası Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmışdır. Müsəlman Şərqində ilk demokratik respublika sayılan Azərbaycan Xalq cümhuriyyəti dünyanın siyasi xəritə-sində Azərbaycan adlı dövlətin varlığını həkk etdirdi.

1918-ci ildə Azərbaycan öz müstəqilliyini elan edəndən sonra dövlətçilik rəmzlərinin bərpa olunmasına başlanıldı. Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət rəmzləri sırasında yalnız Dövlət bayrağı qanunvericilik səviyyəsində təsdiqini tapmışdı. Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurasının Dövlət gerbi və Dövlət himninin yaradılması haqqında 1920-ci il 30 yanvar tarixli qərarına əsasən müsabiqə elan edilsə də, bu dövlət rəmzlərinin qanunvericilik aktları ilə təsdiq olunması o dövrün siyasi-tarixi hadisələri ilə bağlı mümkün olmamışdı.



*İrəvan xanlığının bayrağı*
*(XVIII əsr)*
*Milli Azərbaycan Tarixi Muzeyi*

Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında ilk hökumət qərarı 1918-ci il iyunun 21-də verilmişdir. Həmin qərarda Azərbaycan bayrağı qırmızı rəngdə, orta hissəsində ağ aypara və səkkizguşəli ulduzun təsviri verilmiş bayraq kimi qəbul edilmişdi.

Azərbaycan Xalq Cümhuriyyətinin Nazirlər Şurası tərəfindən 1918-ci il noyabrın 9-da hökumətin başçısı Fətəli xan Xoyskinin məruzəsi əsasında Azərbaycanın yeni üçrəngli – mavi, qırmızı, yaşıl zolaqlardan ibarət və üzərində ağ rəngli aypara və səkkizguşəli



*Azərbaycan Xalq Cümhuriyyətinin ilk Dövlət bayrağı (21 iyun 1918-ci il)*



*Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət bayrağı (9 noyabr 1918-ci il)*



ВЫПИСКА

изъ журнала постановленій Правительства Азербайджана отъ 9-го Ноября 1918 г.

| СЛУШАЛИ: | ПОСТАНОВИЛИ: |
| --- | --- |
| Докладъ Предсѣдателя Совѣта Министровъ о національномъ флагѣ.- | Національнымъ флагомъ признать флагъ, состоящій изъ зеленаго, краснаго и голубого цвѣтовъ съ бѣлымъ полумѣсяцемъ и восьмигранной звѣздой.- |

Съ подлиннымъ вѣрно:

Дѣлопроизводитель

Настоящая выписка препровождается Г. Министру Внутреннихъ Дѣлъ для свѣдѣнія.-

Ноября "11" дня 1918 г.

гор. Баку. Секретарь Правительства

№ 2288

Дѣлопроизводитель

*Azərbaycan Xalq Cümhuriyyəti Hökumətinin üçrəngli bayrağın təsdiq edilməsi haqqında qərarı (9 noyabr 1918-ci il )*

ulduz təsviri olan milli bayrağının təsdiq edilməsi haqqında qərar qəbul edildi.

1918-ci il dekabrın 7-də isə bayrağımız Müsəlman Şərqində və türk-islam dünyasında ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin Parlamentinin açılışı zamanı binanın üzərində dalğalandı.

İyirmi üç ay ömür sürən Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyəti xalqımızın şüurunda milli dövlətçilik ənənələrinin, tarixi yaddaşın bərpası və inkişafında silinməz iz buraxmışdı.

1920-ci il aprelin 28-də Şimali Azərbaycan bolşevik Rusiyası tərəfindən işğal olundu və Azərbaycan İctimai Şuralar Cümhuriyyəti (Azərbaycan SSR) yaradıldı. Milli dövlətçiliyimizi əks etdirən bütün rəmzlər ləğv edildi və sovet simvolları ilə əvəz olundu.



*Azərbaycan Xalq Cümhuriyyətinin Osmanlı Türkiyəsinin İstanbul şəhərindəki diplomatik nümayəndəliyinin binasının üzərində dalğalanan bayrağı (oktyabr, 1918-ci il)*
*Dövlət Bayrağı Muzeyi*



*Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində asılmış Dövlət bayrağı (7 dekabr, 1918-ci il)*
*Dövlət Bayrağı Muzeyi*




*Azərbaycan SSR-in bayrağı (1922-1924-cü illər)*



*Azərbaycan SSR-in bayrağı (1952-1991-ci illər)*

Azərbaycan SSR-in bütün bayraqlarında qırmızı rəngdən istifadə olunmuşdur. O zaman qırmızı rəng «sovet xalqının kommunizm quruculuğu uğrunda mübarizəsi»nin simvolu hesab edilirdi. Bayraq üzərində olan oraq və çəkicin mənasına gəldikdə isə bu rəmz proletar dövlətin emblemi sayılır, fəhlə və kəndli sinfinin ayrılmaz ittifaqını ifadə edirdi.

Sovet dövründə Azərbaycanda dövlət bayraqları dəfələrlə dəyişdirilmişdir. Bu dəyişikliklər bir qayda olaraq respublikanın müxtəlif dövrlərdə qəbul edilmiş konstitusiyalarının müvafiq maddələrində və Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin fərmanlarında təsbit olunmuşdur. 1921–1952-ci illərdə Azərbaycan SSR-in Dövlət bayrağında al qumaş üzərində respublikanın adını özündə təcəssüm etdirən yazılar bu illər ərzində aparılmış əlifba islahatlarına müvafiq olaraq ərəb, latın və kiril əlifbaları əsasında verilmişdir.

1947-ci il yanvarın 20-də SSRİ Ali Soveti Rəyasət Heyətinin qərarına əsasən, müttəfiq respublikaların Dövlət bayraqlarına Sovet dövlətinin əsas rəmzləri ilə yanaşı (oraq və çəkic, beşguşəli ulduz, qırmızı rəngin qorunması), milli xüsusiyyətləri əks etdirən digər rənglər də əlavə edilməli idi. Bu qərardan sonra Azərbaycan SSR-də müvafiq dəyişiklik Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1952-ci il 7 oktyabr tarixli fərmanı ilə təsdiq olundu və bayrağın yeni təsviri (qırmızı rəngli üst əsas zolaq və göy rəngli alt zolaq) Azərbaycan SSR-in 1953-cü il 18 avqust tarixli Qanunu ilə Azərbaycan SSR Konstitusiyasının (Əsas Qanun) 152-ci maddəsinə daxil edildi. Bu bayraq Azərbaycan SSR-in xalq rəssamı, Azərbaycan Dövlət İncəsənət Muzeyinin direktoru olmuş Kazım Kazımzadənin layihəsi əsasında hazırlanmışdı. Bayrağın aşağı hissəsindəki göy zolaq Xəzər dənizini simvolizə edirdi.

1981-ci il 16 mart tarixli qərara əsasən, Azərbaycan SSR-in Dövlət bayrağının əks tərəfindən oraq, çəkic və ulduz təsvirləri çıxarılmışdı. Bu bayraq Azərbaycanda sovet hakimiyyətinin süqutunadək respublikanın Dövlət bayrağı statusunu daşımışdı.

Azərbaycan uzun illər Sovet İttifaqının tərkibində olmasına baxmayaraq öz dövlətçilik ənənələrini qoruyub saxlaya bilmişdi.



*Azərbaycan SSR-in bayraqları*
*(reproduksiya)*
*Dövlət Bayrağı Muzeyi*



Azərbaycanın üçrəngli bayrağının yenidən dövlət rəmzi kimi qəbul edilməsində Ulu öndər Heydər Əliyevin mühüm tarixi xidməti vardır. Belə ki, üçrəngli bayrağımız 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə keçirilən sessiyada Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi təsdiq edilmişdi. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti «Azərbaycan Respublikasının Dövlət bayrağı haqqında» Qanun qəbul edərək onu Dövlət bayrağı elan etdi.

1991-ci il oktyabrın 18-də «Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında» Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını bərpa etdi. Azərbaycan Respublikası Konstitusiyasının 2 maddəsində (23-cü və 75-ci) dövlət rəmzlərinin təsbit olunması onların qanunvericilik səviyyəsində təsdiq olunduğunu göstərir. Konstitusiyanın 75-ci maddəsinin birinci bəndində qeyd olunur ki, hər bir vətəndaş Azərbaycan Respublikasının dövlət rəmzlərinə – bayrağına, gerbinə və himninə hörmət etməlidir. Beləliklə, Konstitusiya qanunu ilə üçrəngli milli bayrağımız Azərbaycan Respublikasının Dövlət bayrağı kimi təsdiq edildi və bu istiqlal rəmzimiz bütün Azərbaycan üzərində dalğalanmağa başladı.

Azərbaycanın Dövlət bayrağı «üçrəngli bayraq»-lar (trikolor) sırasına daxildir. Dünyada ilk trikolor XVI əsrdə Hollandiyada yaradılmış və qırmızı, ağ, mavi rəngli üç üfüqi zolaqlı olmuşdur. Müasir dövrdə bir çox dövlətlərin də bayraqları üç üfüqi və ya şaqu-

li zolaqdan ibarətdir, lakin bizim milli bayrağımız dünyada mövcud olan trikolorlardan rəng düzümü ilə bərabər, üzərindəki simvolları ilə də fərqlənir. Onu da qeyd etmək lazımdır ki, müxtəlif dövrlərə və dövlətlərə məxsus bayraqlardakı eyni rəng müxtəlif məna və funksiyalar daşıya bilər.

Azərbaycan Respublikasının Dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir. Mavi rəng – Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng – müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng – islam sivilizasiyasına mənsubluğunu ifadə edir.

Azərbaycan bayrağının üzərindəki aypara türk xalqlarının qədim simvoludur. Səkkizguşəli ulduzun mənasına gəlincə, bu, «Azərbaycan» sözünün əski əlifbada yazılışı ilə bağlıdır. Belə ki, «Azərbaycan» sözü həmin əlifbada səkkiz hərflə yazılır.

Vurğulamaq lazımdır ki, Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə dövlət quruculuğu siyasətində tarixi işlərlə yanaşı, milli dövlətçilik atributlarının tam formalaşdırılmasına, onların bütün vətəndaşlar, xüsusən gənclər arasında təbliği və öyrənilməsinə də zəmin yarandı. Məhz Heydər Əliyevin sayəsində Dövlət bayrağının bərpası müstəqil dövlətçilik ənənələrinin davam etdirilməsi yolunda uğurlu bir addım oldu.

Ümummilli lider Heydər Əliyev tərəfindən 1998-ci il martın 13-də «Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında» Sərəncamın imzalanması dövlət rəmzlərinin daha geniş miqyasda təbliğini təmin edərək, eyni zamanda cəmiyyətin vətənpərvərlik ruhunda formalaşmasına, dövlət rəmzlərinə hörmət və ehtiram hisslərinin gücləndirilməsinə xüsusi təkan verdi.

Ulu öndər Heydər Əliyevin dövlətçilik sahəsində gördüyü işlər bu gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən inkişaf etdirilməkdədir. Heydər Əliyevin Azərbaycançılıq ideologiyasının əsas sütunlarından olan dövlətçilik maraqlarının daim üstün tutulması İlham Əliyev siyasətinin təməl prinsipidir. Azərbaycanda milli dövlətçilik ənənələrinin qorunmasında Dövlət bayrağının xüsusi əhəmiyyətini nəzərə alan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev öz fəaliyyətində bunu qabarıq şəkildə göstərir. 2004-cü il 8 iyun tarixli «Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında» Azərbaycan Respublikası Qanununun qəbul edilməsi dövlət rəmzlərinin qanunvericilik bazasının təkmilləşdirilməsi istiqamətində atılmış mühüm addımlardan biridir. Bu qanun sadəcə Dövlət bayrağının istifadəsi qaydalarını müəyyən etmir, eyni zamanda Azərbaycan Respublikasında yaşayan yerli və xarici vətəndaşların Dövlət bayrağına hörmətlə yanaşmasını təmin edir.

Bakı şəhərində Dövlət Bayrağı Meydanının salınması da Prezident İlham Əliyevin dövlət rəmzlərinə olan yüksək ehtiramının bariz nümunəsidir. Dövlət başçısı 2007-ci il noyabrın 17-də bununla bağlı sərəncam imzalamışdır. Həmin il dekabrın 30-da Prezident İlham Əliyevin iştirakı ilə Bakının Bayıl qəsəbəsində Dövlət Bayrağı Meydanının təməli qoyulmuşdur. Meydan üçün seçilmiş yer Dövlət bayrağının paytaxtın müxtəlif nöqtələrindən görünməsinə imkan verir. Xüsusi layihə əsasında reallaşdırılan tikinti işlərinə xarici və yerli mütəxəssislər cəlb olunmuşdur.





*Dövlət Bayrağı Meydanı*
*(1 sentyabr 2010-cu il)*

Azərbaycan Respublikasının dövlət rəmzlərinə hörmət və ehtiramı təmin etmək məqsədilə Prezident İlham Əliyev 2009-cu il noyabrın 17-də "Azərbaycan Respublikasının Dövlət bayrağı gününün təsis edilməsi haqqında" Sərəncam imzalamışdır. Bu Sərəncama əsasən, hər ilin noyabr ayının 9-u Azərbaycan Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilir. 2009-cu il dekabrın 4-də isə Milli Məclis noyabrın 9-nu Dövlət Bayrağı Günü kimi rəsmiləşdirmişdir.

Məhz Prezident İlham Əliyevin səyi nəticəsində Dövlət Bayrağı Günü indi dövlət səviyyəsində keçirilən ən əhəmiyyətli bayramlar sırasındadır. Bu bayram Azərbaycan xalqını daha da sıx birləşdirir. Bu da bir daha möhtərəm Prezident İlham Əliyevin müstəqil Azərbaycanın dövlətçilik rəmzlərinə və ənənələrinə, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş Azərbaycançılıq ideyasına, milli-mənəvi dəyərlərin qorunmasına sadiqliyini əyani şəkildə sübut edir. Bu gün doğma vətənimiz Azərbaycanda dalğalanan bayrağımız hamımızda böyük iftixar hissi yaradaraq xalqın müstəqil dövlətçiliyini qorumaq, inkişaf etdirmək və yaşatmaq əzmini göstərir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə salınan Dövlət Bayrağı Meydanının 2010-cu il sentyabrın 1-də təntənəli şəkildə açılışı olmuşdur. Mərasimdə çıxış edən ölkə başçısı Dövlət Bayrağı Meydanının yaradılmasının Azərbaycan dövlətinin gücünün, xalqın öz dövlətinə sevgisinin, dövlət rəmzlərimizə ehtiramının göstəricisi olduğunu bildirmişdir.

Dövlət başçısı hələ o zaman görkəmli siyasətçilərə xas olan əminliklə demişdir: «Bizim bayrağımız qürur mənbəyimizdir. Bizim bayrağımız canımızdır, ürəyimizdir. Bu gün Azərbaycanın hər bir yerində



*Dövlət Bayrağı Muzeyi (9 noyabr 2010-cu il)*







*Dövlət Bayrağı Muzeyi*
*(9 noyabr 2010-cu il)*

dövlət bayrağı dalğalanır. Azərbaycan ərazi bütövlüyünü bərpa edəndən sonra milli dövlət bayrağımız bu gün hələ də işğal altında olan torpaqlarda qaldırılacaqdır. Bizim bayrağımız Dağlıq Qarabağda, Xankəndidə, Şuşada dalğalanacaqdır. O günü biz hər an öz işimizlə yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq. Eşq olsun, Azərbaycan bayrağına! Yaşasın, Azərbaycan!». İllər keçəcək, Prezidentimizin bəyan etdiyi bu məram gerçəyə çevriləcək.

2010-cu ilin noyabr ayının 9-da Bakıda Dövlət Bayrağı Muzeyi də fəaliyyətə başlamışdır. Bu Muzeyin də yaradılması Prezident İlham Əliyevin Azərbaycan xalqının milli-mənəvi dəyərlərə, dövlətçilik ənənələrinə sadiqliyini, ülvi münasibətini nümayiş etdirir. Azərbaycan xalqının şanlı tarixini, zəngin dövlətçilik ənənələrini, müstəqillik uğrunda mübarizəsini özündə əks etdirən Dövlət bayrağının təbliğ olunması, cəmiyyət arasında, xüsusilə gənc nəsildə vətənpərvərlik hisslərinin daha da yüksəldiməsi Dövlət Bayrağı Muzeyinin yaradılmasının əsas məqsədləri sırasındadır.

Muzeydə müxtəlif dövrlərdə Azərbaycanın tarixi ərazilərində mövcud olmuş dövlətlərin, xanlıqların hakimiyyət rəmzləri, sikkələr, bayraqların surətləri saxlanılır. Burada XIX əsrə aid Azərbaycan şəhərlərinin gerbləri, XX əsrə aid Konstitusiya broşürləri, poçt markaları, pul nümunələri, Azərbaycan Respublikasının orden və medalları (“Heydər Əliyev” ordeni, “Qızıl Ulduz” medalı və s.), Silahlı Qüvvələrin Bayraqları, mərasim geyim formaları və s. eksponatlar vardır. Dövlət Bayrağı Muzeyində nadir eksponatlar sırasında 1918-20-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin Türkiyədəki diplomatik nümayəndəliyinin binasının üzərində dalğalanmış və Azərbaycan Xalq Cümhuriyyətinin parlamentində asılmış Dövlət bayraqları da qorunub saxlanılır.




Azərbaycan Respublikasının
Dövlət Himninin Musiqisi

Bu gün Azərbaycan Respublikasının müxtəlif sahələrdə qazandığı uğurlar dövlət bayrağımızın yüksəklərə qaldırılması ilə nümayiş etdirilir və bu hər bir Azərbaycan vətəndaşında sonsuz qürur hissi oyadır. Hazırda Azərbaycan dünyada iqtisadi inkişaf tempinə görə qabaqcıl ölkələr sırasındadır. Əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ölkənin daxili və xarici siyasətində, elm, təhsil, mədəniyyət, idman, ordu quruculuğunda əldə edilmiş uğurlar indi də ölkə başçısı tərəfindən davam etdirilir. Müxtəlif sahələrdə qazanılan nailiyyətlərin əsasında biz öz dövlətçilik tariximizi, mədəniyyətimizi, irsimizi təbliğ edə bilirik. Bütün sahələrdə qazanılan hər müvəfəqiyyətin ilk göstəricisi kimi bayrağımızın dalğalanmasının şahidi oluruq.

Bəllidir ki, Azərbaycan xalqı illərdir arzusunda olduğu Qarabağda üçrəngli bayrağımızın dalğalanması həsrəti ilə yaşayırdı. Nəhayət, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu təcavüzkar qonşularımızın işğal etdiyi torpaqları azad edərək bu həsrətə son qoydu. Qürur mənbəyimiz olan üçrəngli bayrağımız 30 ildən sonra Qarabağda vüqarla dalğalanır.

Bu şanlı Qələbəyə aparan yol məhz 2016-cı il Aprel döyüşlərindən başlayır. Qeyd etmək lazımdır ki, 2016-cı il aprelin 2-5-də Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatları nəticəsində Qarabağın şimal və cənub hissələrində çox böyük strateji əhəmiyyətə malik yüksəkliklər azad edildi. Qısa müddətdə Ağdərə, Cəbrayıl, Füzuli rayonlarında 2 min hektar ərazi düşməndən azad olundu. Azad olunmuş torpaqlarda və strateji əhəmiyyətə malik olan Lələtəpə yüksəkliyində əzəmətlə Azərbaycan bayrağı dalğalanır. Bununla da Aprel döyüşləri xalqımıza qələbə sevincini yaşadaraq bütün dünyaya Azərbaycanın öz torpaqlarını azad etmək bacarığını, döyüş əzmini nümayiş etdirdi.

Aprel qələbəsinin davamı olaraq, 2018-ci ilin may ayında isə Naxçıvan Muxtar Respublikasının 11 min hektardan çox ərazisi, o cümlədən Şərur rayonunun Günnüt kəndi düşməndən azad edilmiş, dövlət sərhədi boyunca əlverişli yüksəkliklər ələ keçirilmiş, İrəvan–Gorus–Laçın yolu nəzarətə götürülmüşdür. Aprel döyüşləri – Azərbaycanın Vətən müharibəsindəki hərbi Qələbəsinin başlanğıcı oldu və bütün dünyaya təcavüzkar Ermənistanın uydurduğu “yenilməz ordusu”nun yalnız bir mif olduğunu sübut etdi.

2020-ci il müstəqil Azərbaycanın çoxəsrlik dövlətçilik tarixinə ən şanlı səhifələrdən biri kimi yazıldı. Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı dövlətinin ərazi bütövlüyünü, tarixi ədaləti bərpa etdi. Mübariz Azərbaycan Ordusunun sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi.

Cəmi 44 gün ərzində Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəklik, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik azad olundu. Xüsusilə, 2020-ci il noyabrın 8-i



*Lələtəpədə ucaldılan Azərbaycan bayrağı (aprel, 2016-cı il)*

Azərbaycan tarixinin şanlı səhifələrindən birinə çevrildi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz Azərbaycanın tarixi, mədəni və strateji əhəmiyyətə malik, Qarabağın tacı olan Şuşa şəhərini işğalçılardan azad etdi. Bu şanlı Qələbə Zəfər günü kimi Azərbaycan tarixinə yazıldı.

Şuşa şəhərinin işğaldan azad edilməsi 44 gün içərisində aparılan uğurlu əks-hücum əməliyyatlarının sırasında ən mühüm tarixi hadisə və böyük hərbi Qələbə oldu. Azərbaycanın hərbi-diplomatik uğurları, xüsusilə strateji əhəmiyyətli Şuşa şəhərinin azad edilməsi müharibənin sonrakı gedişinə və taleyinə ciddi təsir göstərdi.

Azərbaycanın hərbi-diplomatik qələbəsi ilə nəticələnən 44 günlük Vətən müharibəsinin nəticəsində noyabrın 20-də Ağdamın və 25-də isə Kəlbəcərin işğaldan azad edilməsi noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın müvafiq maddəsinin yerinə yetirilməsini, eləcə də münaqişənin hərbi-siyasi həllini müəyyənləşdirdi. Bunun davamı olaraq üçtərəfli Bəyanatın müvafiq maddəsinə əsasən Ermənistan silahlı qüvvələrinin 2020-ci il dekabrın 1-dən Laçın rayonundan çıxması Azərbaycanın hərbi-diplomatik uğurlarının nəticəsi kimi qiymətləndirilir.

2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı keçirildi. Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakıda keçirilmiş möhtəşəm Zəfər Paradında düşməndən qənimət olaraq götürülmüş silah-sursat və texnika ilə yanaşı, işğaldan azad olunan ərazilərimizdə qaldırılan dövlət bayraqlarımızın nümayiş etdirilməsi hər bir vətəndaşımızda sonsuz qürur hissi yaşatdı. Bütün dünya Azərbaycanın şanlı Qələbəsinin, müzəffər Azərbaycan Ordusunun gücünün şahidi oldu.

2021-ci il yanvarın 14-də Şuşaya səfər edən Azərbaycan Prezidenti İlham Əliyev sonuncu dəfə bundan 39 il əvvəl Ümummilli lider Heydər Əliyevin şəhərə tarixi və unudulmaz səfəri zamanı gəldiyini diqqətə çatdıraraq bildirdi: «Qəhrəman Azərbaycan övladları mükəmməl hərbi əməliyyat keçirərək cəsarət, rəşadət, qəhrəmanlıq, güc, milli ruh nümayiş etdirərək Şuşanı işğalçılardan azad etmişlər və uzun fasilədən sonra noyabrın 8-də Şuşada Azərbaycan bayrağı qaldırılıb. Biz buraya qalib kimi gəlmişik, bayrağı da qaldırmışıq, azad edilmiş bütün torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Döyüşə-döyüşə gəlmişik. Heç kim bu torpaqları bizə elə-belə verməyib. Bütün aparılan danışıqlar heç bir əhəmiyyətə malik deyildi. Biz gördük ki, ancaq öz gücümüzlə öz torpaqlarımızı azad etməliyik və bunu etdik».

Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən üçrəngli bayrağın işğaldan azad olunmuş torpaqlarımızda Şuşada, Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Ağdamda, Kəlbəcərdə, Laçında, Hadrutda, Suqovuşanda ucaldılması hər birimizə böyük iftixar hissi yaşatdı. Bu gün Qələbəmizin rəmzi olan üçrəngli bayrağımız uzun illərdən sonra qürurla dalğalanaraq dövlətimizin gücünü və xalqımızın milli birliyini nümayiş etdirir.

Zəfər bayrağımız torpaqlarımızda əbədi dalğalanacaq! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan!



# Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən işğaldan azad edilmiş ərazilərdə Dövlət Bayrağının ucaldılması:



*Füzuli şəhərində Azərbaycan Respublikasının Dövlət bayrağının ucaldılması (16 noyabr 2020-ci il)*



*Cəbrayıl şəhərində Azərbaycan Respublikasının Dövlət bayrağının ucaldılması (16 noyabr 2020-ci il)*



*Ağdam şəhərində*
*Azərbaycan Respublikasının*
*Dövlət bayrağının ucaldılması*
*(23 noyabr 2020-ci il)*





*Qubadlı və Zəngilan şəhərlərində Azərbaycan Respublikasının Dövlət bayrağının ucaldılması (23 dekabr 2020-ci il)*



*Şuşa şəhərində*
*Azərbaycan Respublikasının*
*Dövlət bayrağının ucaldılması*
*(14 yanvar 2021-ci il)*



*Kəlbəcər şəhərində Azərbaycan Respublikasının Dövlət bayrağının ucaldılması (16 avqust 2021-ci il)*



*Laçın şəhərində*
*Azərbaycan Respublikasının*
*Dövlət bayrağının ucaldılması*
*(21 sentyabr 2022-ci il)*





*Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı (10 dekabr 2020-ci il)*





*Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı (10 dekabr 2020-ci il)*





*Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradı*
*(10 dekabr 2020-ci il)*

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT VƏ MƏNBƏLƏR


1. Abbaslı Mirzə. Şah İsmayıl Xətainin həyat yolu miniatürlərdə. bakı: İşıq, 1981, 91 s.
2. Azərbaycan bayraqları: kataloq. bakı: Elm, 2005, 88 s.
3. Azərbaycan Xalq cümhuriyyəti Ensiklopediyası. İki cilddə: ı cild. bakı: Lider, 2004, 440 s.
4. Azərbaycan qəzeti, 11 noyabr 1918-ci il
5. Azərbaycan respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında Azərbaycan respublikası Prezidentinin Sərəncamı. /bakı şəhəri, 13 mart 1998-ci il/ – http://www.e-qanun.az/framework/4692
6. Azərbaycan respublikasının Konstitusiyası. - http://www.president.az/azerbaijan/constitution
7. Azərbaycan respublikası Prezidentinin ştandartı (bayrağı) haqqında Azərbaycan respublikası Prezidentinin Fərmanı. / bakı şəhəri, 15 sentyabr 2008-ci il/ – http://azertag.az/xeber/AzArbAycAn_rESPUbLıKASı_PrEzıDEnTının_STAnDArTı_bAyrAGı_HAQQınDAAzArbAycAn_rESPUbLıKASı_PrEzıDEnTının_FArMAnı-418431
8. Azərbaycan respublikası 1991–2001: bakı: XXı-yeni nəşrlər Evi, 2001, 280 s.
9. Azərbaycan tarixi. yeddi cilddə: Vıı cild (1941–2002-ci illər). bakı: Elm, 2008, 608 s. + 80 s. illüstrasiya.
10. bayraq /Azərbaycan respublikası Prezidentinin İşlər İdarəsinin PrEzİDEnT KİTAbXAnASı/ - http://files.preslib.az/projects/remz/pdf/remz_bayraq.pdf
11. Dövlət bayrağı Meydanının təntənəli açılış mərasimində İlham əliyevin nitqi. /01 sentyabr 2010-cu il/ – http://www.president.az/articles/646
12. Əhmədov E.İ. Şuşa – Azərbaycanın tarixi və strateji əhəmiyyətli mədəniyyət paytaxtı. Bakı, “Zərdabi Nəşr” MMC, 2022, 472 s.
13. əhmədov S.ə., Məmmədov V.S. Azərbaycan respublikasının Dövlət bayrağı. bakı, 2010, 156 s.

14. Əliyev İ.H., Məhərrəmov E.Ə. Azərbaycan Respublikasının dövlət rəmzləri. Bakı: Nurlan, 2008, 56 s.
15. İslâm Ansiklopedisi. /Türkiye Diyanet Vakfı İslam Araştırmaları Merkezi/. 5-ci cild, 1992, 559 s.
16. Kərimov K. Azərbaycan miniatürləri. Bakı: İşıq, 1980, 221 s.
17. Qurbanov A. Damğalar, rəmzlər..., mənimsəmələr. Bakı, 2013, 327 s.
18. Mərdanov M.C., Quliyev Ə.Q. Azərbaycan Respublikasının dövlət rəmzləri. Bakı: Çaşıoğlu, 2010, 288 s.
19. Musalı N. I Şah İsmayılın hakimiyyəti («Tarix-i aləmara-yi Şah İsmayıl» əsəri əsasında). Bakı: Elm və təhsil, 2011, 482 s.
20. Nəcəfli T.H. Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətləri (Müasir Türkiyə tarixşünaslığında). Bakı: Çaşıoğlu, 2012, 604 s.
21. Nəcəfli T.H. Azərbaycan Səfəvi dövlətinin bayraqlarına dair / T. Nəcəfli // Geostrategiya.- 2017.- № 4.-s. 11-16.
22. Бойцов М.А. Вексиллологические традиции средневековой Европы. //Signum / Центр гербоведческих и генеалогических исследований; Институт всеобщей истории РАН. Отв.ред. А.П. Черных. Вып. 7. Москва: ИВИ РАН, 2013, 296 с.
23. Гасымов. И. О военной лексике эпоса «Китаби-Деде Горгуд». // «Žmogus ir žodis», Vol. 15, № 1, Vilnus, 2013, c.51. – http://www.zmogusirzodis.leu.lt/index.php/zmogusirzodis/article/view/7/8
24. Раджабли А. Нумизматика Азербайджана. Баку: Элм ве Хаят, 1977, 179 с.
25. Райхард Ганс, Шурдель Гарри Д. Флаги. Москва: Слово, 1994, 48 с.
26. Спаткай Л.В. Геральдика стран мира: Европа. Минск: Амалфея, 2005, 527 с.
27. Флаги. Всемирная энциклопедия. Москва: Эксмо, 2009, 257 с.
28. Herbette M. Une ambassade persane sous Louis XIV, Paris, 1907, p.400

**KÖNÜL İMAMVERDİYEVA**

# AZƏRBAYCAN BAYRAĞI

Elmi məsləhətçi: Yaqub Mahmudov
*AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi*

Rəyci: Nailə Vəlixanlı
*AMEA-nın həqiqi üzvü, Əməkdar elm xadimi*

Elmi redaktor: Elçin Əhmədov
*siyasi elmlər doktoru, professor*

Redaktor: Aqşin Məmmədov
*filologiya üzrə fəlsəfə doktoru*

Dizayner: Alf Group DesIgn

Kitabda istifadə olunmuş şəkillər Azərbaycan Respublikası Prezidentinin Mətbuat Xidməti və Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) tərəfindən təqdim olunmuşdur.

© Dənizkənarı Bulvar İdarəsi. 2022
www.bulvar.gov.az

*Kitab* ***“AFPoliqrAF”*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

Qarnitura: Meta Pro
Şərti çap vərəqi: 4
Formatı: 70x100 1/16
Tiraj: 200

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com

Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Qeyd - Note